# İdmançılarımız tarix yazır

**Aprelin 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstanda keçirilmiş Güləş üzrə Avropa çempionatında iştirak etmiş Azərbaycan millisinin üzvləri ilə görüşüb. Yarışlardan böyük qələbə ilə Vətənə dönən idmançılarımızın təəssüratlarını oxuculara təqdim edirik.**

**Rafiq Hüseynov, Avropa çempionatının qızıl medalçısı:**

–16 may 1988-ci ildə Özbəkistanın Daşkənd şəhərində doğulmuşam. Kiçik yaşlarımdan idmanla məşğul olmuşam. Əvvəlcə respublika səviyyəli, sonra isə beynəlxalq yarışlarda iştirak etmişəm. İlk böyük uğurum 2004-cü ildə yeniyetmələrin Avropa çempionatında bürünc medal qa-



zanmağım olub. 2005-ci ildə Avropa çempionatında gümüş medala layiq görülmüşəm. 2007-ci ildə keçirilən gənclərin Avropa çempionatında gümüş, Dünya çempionatında isə bürünc medal qazanmışam. 2008-ci ildə gənclər, 2011-ci ildə isə böyüklər arasında Avropa çempionu olmuşam. Bu uğurumdan sonra ölkə başçısının məni mənzillə mükafatlandırması idmana olan həvəsimi daha da artırdı. 2015-ci ildə isə daha bir neçə uğura imza atdım. İlin əvvəlində komandamız dünya kubokunu qazandı və mən də bütün görüşlərdə qalib oldum. Yarışdan sonra cənab Prezident bizi qəbul etdi və bu görüş Avropa Oyunlarından öncə idmançılarımız üçün yüksək motivasiya oldu. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa Oyunlarında gümüş medal qazandım. Yarışdan sonra cənab Prezident məni "Tərəqqi" medalı ilə təltif etdi. Həmin il mən hərbçilərin Olimpiya çempionu oldum. 2020-ci ildə Romada keçirilən Avropa çempionatında 2-ci dəfə Avropa çempionu oldum.

2021-ci ildə Olimpiya Oyunlarına lisenziya aldım. Yayda keçirilən Olimpiya Oyunlarında bürünc medal qazandım. Olimpiya Oyunlarından sonra cənab Prezident məni "Vətənə xidmətə görə" ordeni ilə təltif etdi. Həmin ilin sentyabr ayında dünya çempionu oldum. 2022-ci ildə isə Avropa çempionu adını həm şəxsi, həm də komanda hesabında qazandım və ölkə tarixində ilk dəfə üçqat Avropa çempionu oldum. Bundan sonra cənab Prezident bizi yenə qəbul etdi və mükafatlandırdı. Bizə göstərilən diqqət və qayğı gələcək uğurlarımıza təkan verir. İnanıram ki, bundan sonra biz daha yüksək nəticələr əldə edəcək və ölkəmizi dünyaya tanıdacağıq.

**Taleh Məmmədov, Avropa çempionatının gümüş medalçısı:**

–16 avqust 1989-cu ildə Goranboy rayonunun Qaradağlı kəndində anadan olmuşam. 2007-ci ildə orta məktəbi bitirib İdman Akademiyasına qəbul oldum və 2011-ci ildə təhsilimi başa vurdum. Birinci yarışım Gürcüstanın Rustavi şəhərində keçirilən beynəlxalq turnir oldu. Həmin yarışda bir erməni, iki gürcü idmançısına qalib gəldim və qızıl medal qazandım.

İkinci beynəlxalq turnir isə Batumidə keçirildi. Yarışda iki erməni və bir gürcü idmançısını məğlub edərək finala çıxdım.



Finalda həmyerlimiz Xurşud Babaşova məğlub oldum və gümüş medal aldım. 2011-ci ildə hərbi xidmətə yola düşdüm və orada hərbçilər arasında Azərbaycan çempionu oldum. 2012-ci ildə Azərbaycan çempionu, ardınca isə Polşada keçirilən turnirdə bürunc medal qazandım. Türkiyənin İstanbul şəhərində keçirilən Beynəlxalq Çempionlar turnirinin qızıl medalını qazandım və ölkə çempionatını ikinci olaraq başa vurdum.

Sonra Türkiyənin Antalya şəhərindəki beynəlxaq turnirdə və Bakıdakı AGF kubokunda üçüncü oldum. 2015-ci ildə isə İranda keçirilən beynəlxalq turnirin qızıl mükafatına layiq görüldüm. 2022-ci ildə Avropa çempionatının gümüş medalını qazandım. Son yarışın nəticələrinə görə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşümüz bizə böyük stimul verdi. Çalışacağam ki, bundan sonra da keçirilən idman yarışlarında Azərbaycan bayrağını uca zirvələrdə dalğalandırım.

**Sənan Süleymanov, Avropa çempionatının bürünc medalçısı:**

–Gürcüstanın Dmanisi rayonunun Qızıl-Kilsə kəndində anadan olmuşam və sonra ailəmiz Bakıya köçüb. 2006-cı ildə Xəzər rayonunun Binə qəsəbəsində Yunan-Roma güləş növü üzrə məşğul olmağa başlamışam. İlk yüksək nailiyyətim 2012-ci ildə yeniyetmələr arasında Avropa çempionatında oldu.



Bürünc medal əldə etdim və həmin il Bakıda keçirilən Dünya çempionatında da bürünc medal qazandım. 2016-cı ildə gənclər arasında Avropa çempionatında bürünc medal qazanmışam. 2019-cu ildə 23 yaşa qədər güləşçilərin Dünya Çempionatında ikinci yeri tutdum. 2020-ci ildə İtaliyanın Roma şəhərində keçirilən böyüklər arasında Avropa çempionatında qızıl medal qazandım. 2021-ci ildə Avropa çempionatında üçüncü yer, dünya çempionatında isə ikinci yeri tutdum. 2022-ci ildə keçirilən Avropa çempionatında bürünc medala layiq görüldüm. Biz komanda şəklində tarixi rekorda imza atdıq və Avropa çempionu olduq. Əldə etdiyimiz yüksək nailiyyətlərə görə, Prezident İlham Əliyev bizi qəbul etdi və hər birimizi təbrik edib uğurlar barədə ətraflı danışdı. Bu gün idmançılarımız yeni tarix yazır. Qazandığımız qələbələr bizi daha böyük uğurlara ruhlandırır.

**Kamil İSMAYIL,**
**"Respublika".**